

## *Dayandur SEVGİN*

### ALATORAN

Alatoran: şər əməllərin və
şər əməllilərin "qaynar iş vaxtı".
Cinin, şəyatinin gələn vədəsi,
Yarasaların səbirsizliklə gözlədiyi
uçuş məqamı,
Qurbağaların zəhlə tökən qurultusu.
Dan yeri qızarınca,
Günəş üfüqdən boy verincə
Şər əməllər çəkilər
öz hücrəsinə.
Cin-şəyatin gözə görünməz,
Yarasalar divar deşiyi axtarar,
Dəcəl bir uşağın atdığı daş
Kəsər qurbağaların
Zəhlə tökən səsini.
Nə yaxşı ki, işıqlı səhərlər var,
İşıqlı adamlar var, İlahi!

### VARSA ƏDALƏT DEDİYİN

Tale atlı, mən piyada,
Güvənmədim baxta, Tanrım.
Şirin-şəkər, gözəl sözlər
Gördüm çıxdı saxta, Tanrım.

İçindəyəm səsin-küyün,
Dərd sinəmdə düyün-düyün,

Varsa ədalət dediyin,
Niyə çıxmır taxta, Tanrım?

Bilsin yaxın-yadım mənim,
Var könlümdə odum mənin,
Varda olmaz adım mənim,
Axtar məni yoxda, Tanrım.

Nəyi deyim, yazım nəyi,
Gedə köksümün göynəyi,
Deyilənin haqq gəlməyi
Qaldı hansı vaxtda, Tanrım?

* * *

Şeytan əməlidi bu gözəlliyin,
Tanrı axıtmazdı belə qanları.
Qara kirpiklərin xilas eyləməz
Dərya gözlərində boğulanları.

Kövrəlsən, gözündən bir damcı düşsə,
Silməyə hər cibdən bir yaylıq çıxar.
Sən tutub gedərsən vüsal yolunu,
Nədənsə qarşına ayrılıq çıxar.

Sonuncu nəğməsin oxuyan qu da,
Son dəfə ürəkdən dinmək istəyir.
Sənin göz yaşından sellənən suda
Kimdi o, bəxtəvər çimmək istəyir.

## YADINDAN ÇIXIB

Əllərin üzündə qalar, İlahi,
Adam gözləriylə baxsan rəngimə.
Nolar bu gözələ insaf verginən,
Bircə cavab versin mənim zəngimə.

Dəryada gəmiyəm, uçub yelkənim,
Külək yellədikcə əsər kəndiri.
Asılı qalmışam dar ağacından,
Bircə "ALO" sözü kəsər kəndiri.

Dillənə qəlbinin kaş sarı simi,
Duyam istisini kövrək səsinin.
Nolardı barmağı kəpənək kimi
Qonaydı üstünə "YES" düyməsinin.

Bu başda həyəcan, o baş da sükut,
Aya, ilə dönür hər keçən anım.
Çağırır, çağırır, telefon susur,
Bir cavab verməyir qəlbi daş xanım.

Sən bizi sevgidən yaratdın axı,
Ən ülvi sevgilər adından çıxıb.
Tanrım, bu gözələ hər şey vermisən,
Bircə ürək vermək yadından çıxıb.

## GÖZƏL

Sözüm tellərinin birinə dəyməz,
Təsvir eləsəm də yüz səni, gözəl.
O hansı nəqqaşdı belə nəqş edib,
Belə şəkil kimi qız səni, gözəl.

Öldüm həsrətinin qeylü-qalında,
Sən varsan, gözüm yox dünya malında.
Elə bil ay doğub gül camalında,
Ölür görmək üçün göz səni, gözəl.

Həsrətin canımı yaxıb, qurtarıb,
Gözüm göz yaşımı sıxıb, qurtarıb,
Mənim axırıma çıxıb, qurtarıb,
Bəs niyə öldürmür naz səni, gözəl.

Ayrılıq Sevginin qəddini əyib,
O al dodaqların gilastək dəyib,
Üstündə ilahi elə işləyib,
Çətindi vəsf etsin söz səni, gözəl.

* * *

Düşündüm ki, sən mənim
Ta çıxmısan yadımdan.
Yenə göz-gözə gəldik,
Neynim mən bəxti qara.
Qara gözlərin ilə
Talan etdin könlümü.
Bu yaşda Məcnun olub,
Düşümmü səhralara.

---

**REDAKSİYADAN: Hörmətli həmkarımız Dayandur Sevgin, 60 yaşın mübarək! Sənə möhkəm cansağlığı, ailə səadəti arzulayırıq. Yaşa!**